# Görkəmli alim Həsən Mirzəyevin yubileyinə həsr olunan beynəlxalq elmi konfrans





**Azərbaycan Dövlət Pedaqoji Universitetində görkəmli dilçi alim, Əməkdar elm xadimi, professor Həsən Mirzəyevin 95 illik yubileyinə həsr olunmuş "Müasir Azərbaycan dilçiliyinin aktual problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçirilir. Məclisdə millət vəkilləri, ölkənin elmi-mədəni ictimaiyyətinin təmsilçiləri, Türkiyə, Özbəkistan, Gürcüstan və Qırğızıstandan gəlmiş qonaqlar iştirak edirlər.**

Universitetin Elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanovun giriş sözü ilə açdığı plenar iclasda ADPU-nun rektoru professor Cəfər Cəfərov görkəmli alimin həyat və yaradıçılığı haqqında, onun dilçiliyin müxtəlif problemlərinə dair sanballı tədqiqatları, universitetdə yaratdığı müasir Azərbaycan dili kafedrasının uğurlu fəaliyyəti barədə danışıb. Rektor YAP-ın yaradılmasının 30-cu ildönümü ilə bağlı Həsən Mirzəyevin də daxil olduğu məşhur "91-lər"in bu partiyanın ərsəyə gəlməsində xidmətini xatırladıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli görkəmli alimin tərbiyə aldığı ailə və mühit haqqında fikirlərini bölüşüb, Həsən Mirzəyevin elmi və siyasi fəaliyyətini dəyərləndirib, onun Azərbaycan filologiya elminin inkişafında xidmətlərindən danışıb.

AMEA prezidenti alimin Qərbi Azərbaycanın yer adları ilə bağlı araşdırmalarının milli tariximizin öyrənilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

Bildirilib ki, H.Mirzəyevin 200-dən çox elmi əsəri, o cümlədən 25 kitabı və 10-a yaxın dərs vəsaiti işıq üzü görüb. O, mütəmadi olaraq bədii yaradıcılıqla da məşğul olub. Böyük alim həm də tanınmış ictimai-siyasi xadim idi, Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub. 2002-ci ildə "Şöhrət" ordeninə, 2007-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülüb.

Beynəlxalq tədbirdə çıxış edən Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, BDU-nun rektoru Elçin Babayev, ADU-nun rektoru, akademik Kamal Abdullayev, Azərbaycanda Atatürk Mərkəzinin direktoru, Milli Məclisin üzvü akademik Nizami Cəfərov, AMEA Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru professor Nadir Məmmədli, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Türkiyənin Fırat Universitetinin professoru Ahmet Buran, Özbəkistan Dövlət Şərqşünaslıq Universiteti türkologiya fakültəsinin dekanı dosent Cumali Şabanov, ADPU-nun elmi-təşkilati işlər şöbəsinin müdiri professor İbrahim Bayramov və başqaları Həsən Mirzəyevin elmi yaradıcılığından, pedaqoji və ictimai fəaliyyətindən danışıblar, onunla bağlı xatirələrini bölüşüblər.

İclasın sonunda Həsən Mirzəyevin oğlu Müşfiq Mirzəyev yubileyin yüksək səviyyədə keçirilməsinə görə iştirakçılara və ADPU-nun rəhbərliyinə təşəkkürünü bildirib.

Beynəlxalq konfrans "Professor Həsən Mirzəyevin yaradıcılığında filologiya məsələləri", "Filologiyanın ümumi məsələləri", "Ümumi dilçilik" və "Pedaqogikanın aktual məsələləri" bölmələrində işini bu gün də davam etdirir.

**Namiq ƏHMƏDOV,**
**"Xalq qəzeti"**